# Gəncə Dövlət Universitetində Məzun günü keçirilmişdir









Məzun gününə bu il universiteti bitirən yüzlərlə bakalavr və magistrlərlə yanaşı, 44 günlük Vətən müharibəsində qazi olmuş universitet tələbələri, həmçinin şəhid anaları da qatılmışdılar. İkiillik pandemiyadan sonra Məzun gününün keçirilməsi müəllim və tələbələrə böyük sevinc bəxş etmişdir.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlamışdır. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra söz universitetin rektoru, professor Yusif Yusibova verilmişdir. Rektor çıxış edərək bu il universitetdən 1928 tələbə və magistrin məzun olduğunu diqqətə çatdırmış, GDU-nun əldə etdiyi nailiyyətlərdən danışmışdır. 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etməklə böyük qələbənin qazanılmasında gənclərin rolundan söz açan natiq Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın, o cümlədən GDU-nun 16 şəhid məzununun xatirəsinin daim əziz tutulduğunu qeyd etmişdir.

Sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək məzunları təbrik etmiş, onlara gələcək həyatlarında uğurlar və ölkəmizin daha da çiçəklənməsi naminə səy və bacarıqlarını əsirgəməməyi arzulamışdır.

Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Milli Məclisin deputatı Pərvin Kərimzadə, şəhid anası Brilliyant Əsgərova, universitetin tələbəsi, 44 günlük Vətən müharibəsinin qazisi Tural Zeynalov və başqaları çıxış edərək məzunlara xoş arzularını bildirmişlər.

Sonra mükafatlandırma mərasimi olmuşdur. Universitetin ictimai-siyasi həyatında fəallıq göstərən, təhsildə fərqlənən bir qrup məzuna fəxri fərman təqdim edilmişdir. Məzunlar qonaqlarla xatirə şəkli çəkdirdikdən sonra böyük bayram konserti olmuşdur. Tədbir iştirakçıları universitet tələbələrinin ifasında səsləndirilən qəhrəmanlıq mahnılarını, eləcə də rəqs qrupu üzvlərinin çıxışlarını alqışlarla qarşılamışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 28 may.- S.19.